

Əminə YUSİFQIZI,
*Respublikanın əməkdar jurnalisti*

# Şəhid qanından içib çiçəkləyən ağaclar

**Müharibə atəşi 30 ildir yaxıb, yandırdı yurdumuzu, anaları balasız, ataları oğulsuz, körpələri atasız, ölkəmizi yurdsuz-yuvasız, viranə qoydu. Ailələr minbir əziyyətlə, arzuyla övlad böyüdüb, ev-eşik edərkən, çağırılmamış qonaq kimi dayandı qapıda, söndürdü ocaqları müharibə. Çiçəyi burnunda körpələr doyunca vətən çörəyi yemədən düşmən qurşunu yedi. Qanlarından içib çiçəklədi ağaclarımız, yaşardı torpağımız. Həyatlarının baharında soldular.**

İbrahimov Bəhram Sakit oğlu 1999-cu il mayın 5-də Ərəbbəsrə kəndində doğulmuşdu.

Ana qoynunda böyümüş mələk, gənclik arzuları ilə atəşlənirkən, düşmən atəşinin qurbanı olan körpə. Bəhram Şəhid İsa Məmmədov adına Ərəbbəsrə kənd orta məktəbini bitirib, əsgəri xidmətini 2019-cu ildə Beyləqanda keçmişdi. Hərb sənətinə çox həvəsliymiş. Əsgərlikdən sonra müddətdən artıq həqiqi hərbi xidmət qulluqçusu kimi hərbi xidmətə davam etmək üçün sənədlərini də hazırlayıbmış. Bir qalıbmış tibbi komissiyadan keçmək. Bu ərəfədə müharibə başlayır, vətən övladları səfərbərlik üçün hərbi komissarlıqların qarşısına axışır. Bəhram da elə ilk gündən Səfərbərlik və Hərbi Xidmətə çağırış üzrə Dövlət Xidmətinin Yevlax rayon şöbəsinə gəlib könüllü olaraq müharibəyə getmək istədiyini bildirir və ertəsi gün qısa müddətli təlimlərə cəlb olunur. Lakin müharibə-elə ilk gündən ildırım süratilə ölkəmizin düşmənlə olan bütün cəbhə boyunda alovlanır. Bəhram da döyüşə gedəcəkdi, ailəsi ilə vidalaşmağa gələndə qol açıb oynayır, ata-anasına ürək-dirək verir ki, məndən narahat olmayın, vətənimi qorumağa gedirəm.

Sentyabrın 29-da Bəhramın daxil olduğu tağım Tərtər-Ağdərə istiqamətində döyüşə girir. Hərbi təcrübəsi çox olmasa da, Bəhram döyüşlərdə təcrübəli əsgər kimi qəhrəmanlıqla döyüşür, dostlarına gözəl əhval-ruhiyyə, döyüş həvəsi bəxş edirmiş. İmkan olduqca da ailəsilə danışır, hər şeyin elə olacağını, düşmənə qan uddurduqlarını, qələbə bizim olacağını deyirmiş. Sonuncu dəfə oktyabrın 4-də səhər saat 9:40-da atasilə danışıb. Yenə də ümid dolu, qələbə havalı danışıb. Deyib ki, ata, az qaldı, qələbə çalacağıq. Mən də müharibədən sonra orduda qalıb işləyəcəm. Atası da xeyirdua verib, inşallah, oğlum, qələbə çalaq, sağ-salamat gəl, nə istərsən, harda istəyərsən orda işləyərsən- deyib. Ancaq atasına haqqını halal elə, özünüzə yaxşı baxın, deməyi də unutmayıb.

O gündən sonra bir xeyli Bəhramdan xəbər gəlmir. 10-15 gün gözləyirlər, yenə xəbər çıxmayınca ürəyinə kor atəş saplanmış ata-ana bütün cəbhə boyu döyüş nöqtələrinə gedib oğullarını axtarır. Hospitalları, xəstəxanaları, morqları ələk-vələk edirlər, tapmasalar da, ümidlərini üzmürlər, qayıdacağına inanırlar. Bütün axtarışlar nəticəsiz qalanda Müdafiə Nazirliyinə müraciət edirlər və nazirlik də Bəhramı axtarışa verir. Sonda ata və anadan DNK analizi götürülür və bu yolla şəhid olmuş Bəhramı tapırlar.

2021-ci il yanvarın 12-də Bəhram şəhid kimi Ərəbbəsrə kəndində dəfn olunur. Çiyinlərində daşıdığı övlad dərdi 47 yaşlı atanın qamətini büküb, üzündə cizgi-cizgi qırışlar sıralansa da, qürurludur. Sakit İbrahimov özü də I Qarabağ müharibəsi döyüşçüsüdür:- Oğlum çox ciyərli uşaq idi, vətənə-yurda bağlı idi. Müharibəyə oynaya-oynaya getdi, deyir.

Anası Aytəkinin göz yaşları bulaq kimi axır. Analarımızın alın yazısı körpə balalarının qanilə yazılıb millətimizin. Son günəcən ümidini üzməyibmiş balasından. Minbir əziyyətlə, ümidlə böyütmüşdü. İstədiyini yedirib, geydirə bilməmişdi hələ. Bu kasıb ailə iki övlad böyütmüşdü. Gözlərinin ilk ovu



Bəhramdı, balaca Səbuhi bu il onuncu sinfə gedir. Ümidləri bu uşaqla pöhrələnsin, göz yaşları Səbuhinin xoşbəxt günlərində sevinc yaşlarıyla əvəzlənsin.

Bəhram itkin düşəndə Şəhər İcra Hakimiyyətinin nümayəndələri ilə mən də getmişdim, dərdlərinə şərik olduq, oturub xeyli dərdləşdik. Çox kasıb, darısqal evləri vardı, ata-anası ümidlə gözləyirdi ki, Bəhram dönəcək, əl-ələ verib, çalışıb özlərinə gözəl ev tikib, güzaranlarını yaxşılaşdıracaqlar. Doğrudan da ən sonda ümid ölürmüş. Bəhramın şəhid nəşi gələn günə qədər ailə ümidini kəsməmişdi. Çox təəssüf ki, indi bu evin qapısını şəhid ailəsi kimi döyməli oldum. Müharibə neçə-neçə evlərə atəş saldı, ürəkləri qarsıb yandırdı. Bəhramın ata-anası kimi. Belə ataları, anaları, qadın-uşaqları gördükcə insanın düşmənə nifrəti birə min artır. Qeydlər aparmaq üçün ailə ilə görüşərkən "YAŞAT" Fondundan razılıq etdilər. Mal-qara saxlayıb güzaranlarını yaxşılaşdırmaq üçün ailəyə yardım edib, hər şəraiti olan tövlə və s. tikilməsinə vəsait ayırıb.

Artıq bir ilə yaxın zamandır yazımı qələmə aldığım. Yenidən İbrahimovlar ailəsindəyəm. Bu evə gələndə yanvarın 21-ni xatırladım. O gün Ərəbbəsrəyə qara bulud, hüzn çökmüşdü, qocadan-gəncə,qadından-uşağa hər kəs Bəhram adlı oğlunu ağlayırdı. O gün kəndin bütün analarının Bəhramı ölmüşdü...

Amma sən ölmədin Bəhram, zəfərimizin müjdəçisi, 30 ildir öləzimiş ümidimizin işığı oldun, ruhumuzu dirçəltdin. Yurdun hər daşında, torpağında çiçəklədin. Millətimizin işğal dərdini, vətən həsrətini içində qocaltmadın oğul. Ərəbbəsrə camaatı sonsuza qədər kənd məzarlığındakı məkanını minnətlə, sonsuz sevgiylə ziyarət edəcək, əziz xatirəni sonsuzadək anacaqlar.




Bəhramın valideynləri ilə növbəti görüşüm zamanı ötən bir ildə həyatlarında baş verənlərlə bağlı da maraqlandım. Gözütox, könlütox fədakar insanlar ancaq təşəkkür etdilər: "Hər kəsdən diqqət və qayğı görürük, sağ olsunlar. İribuynuzlu heyvan verilib, "YAŞAT" fondu bir sıra məişət avadanlıqları ilə təmin edib bizi. Əlavə torpaq sahəsi verilməsi də nəzərdə tutulub, dedilər. Şəhidin anası Aytəkin xanım xüsusilə möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevdən və Birinci vitse-prezident Mehriban xanım Əliyevadan dünyalarca razı qaldıqlarını ifadə etdi.

İbrahimov Bəhram Sakit oğlu ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə "Vətən uğrunda" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Bəhramın uğrunda canından keçdiyi Qarabağ Azərbaycandır!